# Şeir bir güzgüdür

**Hər Təbrizə gedəndə onunla görüşməyi özümə borc bilirəm.Hüseyn Namvər özünəməxsus şairdir.Şeirlərində vətənpərvərlik,Qarabağ mövzuları daha çox nəzərə çarpır.Xarakterində mərdlik,saflıq,insanpərvərlik xüsusiyyətləri əks olunur.Hüseyn Namvər klassiklərdən tutmuş,çağdaş poeziyanı diqqətlə oxuyur,izləyir.Zəngin , ədəbi təfəkkürə malikdir.Həm də Təbrizdə "Saz-Söz" ədəbi məclisinin rəhbəridir.Ona ürəyimdən bir neçə suallar vermək keçdi.-Söhbətimiz tutdu deyəsən:**

**- Hüseyn bəy,özünüz haqqında qısa məlumat verməyinizi xahiş edirəm.**

- Ovşardlı Məhəmmədəli oğlu Hüseyn Namvərəm. 1325 ci günəş ili Ovşardda anadan olmuşam 1349 ci günəş ili Atam , Anam qardaşlarım, bacılarım ilə birlikdə Təbrizə köçdük. Dövlət qulluqçusu olaraq işə düzəlmişəm. İndi isə əməkdaşlıq gəliri ilə Təbrizdə yaşayıram.

**- Şeir sizin üçün nədir?**

- Şeir bir güzgüdür. Doğanın sunduğu gözəlliklər, yaşam sürəs-ində baş vermiş olaylar, toplumda olan durumun necəlikləri şairin duyğusunda canlanır.

**- Şeirlərinizdə qəribə nisgil var bunun kökü nədir?**

- Bir ulusun halal payları əlindən alınırsa, tam arzuları tapdalanıb , nisgilə çevirilirsə, qürurunun üstün- də at oynadılırsa onun şairindən nə umursunuz:

**Didilibdir elim dedim**
**Ayım dedim ilim dedim**
**Yasaqdırsa dilim dedim**
**Paybölən nə deyim sənə**

**- Siz "Saz-söz" ocağının rəhbərisiniz.Bu barədə danışasınız bəlkə.**

- Aşıqlarla şairləri bir yerə toplayıb aşıqları şeirlə- şairləri çalğıyla tanış edmək saz- söz ocağının əsas məqsədidir.Bu ocağa yaşlı, orta yaşlı, gənc yaşlı şairlər, aşıqlar qatılırlar. Məclisləri sıra ilə evlərdə qurub yalnız Azərbaycan türkcəsində çalışırlar. Şeirlər- yazılar Azərbaycan türkcəsinin qanunları ilə müzakirə edilib nəzərdən keçirilər. ildə də bir dəfə seçgimiz olub bir illik yönətim qurulu seçilər.

**- Qarabağ üçün şeiriniz varmı?**

- Babək qalasında Gül ara xanım yeni soyla tanış olandan sonra bu taya gələndə mənə bir CD gət-irmişiydir.



Bu CD də soy qırımın gördükdə bir qarabağ şeyri qoşm-uşam Aşıq Mohsün xudadad Qaraçı havasında çox nisgilli oxuyubdur.

**- Bakıda olmusunuzmu? Oraya gəlsəniz hansı hisləri keşirərsiniz?**

- Bakıda olmamışam. Oranın mənə verəcəyi duyğunun, mənim oradan alacağım duyğunun da nə olacağını bilmirəm.

**- Təbrizdən Bakını necə görürsən?**

- Təbrizdən Bakıya bu taydan o taya gəlmədiyim üçün tanış deyiləm.

Güneydən , Quzeyə baxanda göz önündə Vahid , Natavanı, Vaqıfı, Baxtıyar, özəlliklə Səməd Vurğun, Şahmar Əkbərzadə, Məməd Araz kimi , Üzeyir kimi dahilər canlanır.

**- Darıxanda nədən təsəlli tapırsınız?**

- Azərbaycan çalğısıyla,bütün varlığımla muğama bağlıyam.Qardaşım Həmid Namvər tanınmış muğam ustasıdır.Onun ifasını hər dinləyəndə O taylı, bu taylı Azərbaycan gözümdə bütövləşir.

**- Bakıya nə sözünüz ?**

- Bakının göylərinə , Laçınlı Göllərinə ,Sonalı yollarına ,ceyranlı Kollarına, kəklikli yollarına uğurlar diləyirəm . Ovşardlı Hüseyn Namvər ( Sanlı )

**Söhbətləşdi: Fərqanə Mehdiyeva**
**Təbriz /Bakı**

### *Gəraylılar*

Dedim böylə
Arayırdım diləklərdə,
Çiçək açmış əməklərdə
Gördüm yatıb ürəklərdə
Dedim layla, layla anam

Savalan tək başı qarlı
Dörd yanında bağı barlı
Eli varlı, düz ilqarlı
Dedi söylə, söylə anam

Səksənini verir başa
Səksən azdır doğal yaşa
Ürək deyir yüzdə yaşa
Dedi öylə? ... böylə anam

### *Azərbaycan*

Qaflanları basılmayan
Qaf dağımsan Azərbaycan
Boz qurdları sarsılmayan
Ovlağımsan Azərbaycan
Aslanları boğulmayan
Maralları sağılmayan
Qalaları dağılmayan
Torpağımsan Azərbaycan

Ceyranları ötgün qaçan
Qartalları qanad açan
Ürəklərə işıq saçan
Ocağımsan Azərbaycan

Bulaqları şaqqıldaşan
Kəklikləri qaqqıldaşan
Yapraqları pıçıldaşan
Gül bağımsan Azərbaycan

Açılsın gül budağında
Ayın ilin hər çağında
(Sanlı )gəzim Qucağında
Uçağımsan Azərbaycan

### *Pay bölən*

Payız günü qurultayda
Əlin donsun bölən payda
Çətin keçir qış da , yay da
Pay bölən nə deyim sənə!?

Kimin vardır özün oyur
Kimin yoxdur gözün döyür
(Sanlı) görür belə deyir
Pay bölən nə deyim sənə!?

Kimi gəzir gül bağında
O da sevgi sorağında
Kimi deyir dodağında
Pay bölən nə deyim sənə!?

Kiminin var püstə bağı
Kiminin də qızıldağı
Kimininsə yox yatağı
Pay bölən nə deyim sənə